# AVROPA AUDİT QANUNVERİCİLİYİ
# İDARƏETMƏ POTENSİALI YARADIR

**(Nyu-York, 03 aprel 2014-cü il) -** Sonuncu Avropa Parlament səsverməsi zamanı qanunla müəyyən edilmiş audit Qanunvericiliyində Avropa audit islahatı proseslərinin ən son mərhələsi qeyd edilmiş və təxminən 4 illik müzakirə və debata yekun vurulmuşdur.

Beynəlxalq Mühasiblər Federasiyasının dəfələrlə bəyan etdiyi kimi, biz də həmçinin audit tənzimləyici islahatının əsas məqsədinin auditin və son nəticədə maliyyə hesabatının keyfiyyətinin yüksəldilməsinə imkan yaradılmalı olduğunu düşünürük.

Nəticə etibarı ilə, biz qlobal olaraq Avropa islahatları aspektlərini qəbul edirik. Buna baxmayaraq Qanunvericiliyin digər aspektləri, onun uğurlu keçidini təmin etmək üçün ardıcıl olaraq yenidən müzakirəyə çıxarıla bilər.

Biz Avropanın, Beynəlxalq Audit Standartlarını qəbul etmə addımını yüksək qiymətləndirir, eləcə də dəstəkləyirik. Bu audit standartları qloballaşan mühitdə qəbul edilir və hal-hazırda Beynəlxalq Audit Standartları Avropanın, eləcə də dünyanın 90-dan çox ölkəsində tətbiq edilir. *(IFAC-ın baş icraçı direktoru Fayez Çondri belə söyləmişdir)*

Buna baxmayaraq, biz Qanunvericiliyin digər hissəsinin, fərdi üzv dövlətlərinin, birliyin daxilində nizamsızlıq yaradacaq seçimlə təmin olunmasına olduqca narahatıq. Bir neçə il əvvəl, mütəmadi sitat gətirilən bir fikir mövcud idi. “Qlobal problemlər qlobal həllər tələb edir”. Bununla dünyada ABŞ və Kanadadan başqa digər dünya dövlətlərinin böyük bir qismi öz fikirlərini Avropada nə baş verəcək deyə düşüncəsi üzərində cəmləşmişdir.

Cari ilin yanvar ayında, IFAC, qlobal tənzimləyici uyğunlaşmaya nail olmağın uğursuzluğu təsirini ön plana çıxarmışdır və “Nüfuzdan düşən biznes inamının qarşısının alınması, iqtisadi sabitlik və davamlı bərpa üçün ambissiyaların dəstəklənməsi” fikrini yürütmüşdür. Auditor müstəqilliyi daxil olan sahələrdə - xüsusən məcburi audit və qeyri-audit xidməti təminatı – Avropa qanunvericiliyinə uyğun olaraq üzv dövlətlər arasında birmənalı qarşılanmamışdır. Təbii ki, bu isə müsbət hal deyildir.

**Hörmətlə,**

**Laura Vilker**
**İctimaiyyətlə əlaqələr Departamenti**